*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    20 sentyabr 2017-ci il  № 70 (2187)    Qiyməti 25 qəpik


## "TurAz Qartalı - 2017" birgə taktiki təlimləri davam edir



Sentyabrın 18-dən ölkəmizdə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin iştirakı ilə "TurAz Qartalı-2017" birgə taktiki-uçuş təlimləri başlayıb

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, sentyabrın 30-dək davam edəcək təlimlərdə iki ölkənin Hərbi Hava Qüvvələrinə məxsus MiQ-29, F-16, Su-25, C-130 Herkules, CASA CN-235 təyyarələri və Mi-35, Mi-17, Sikorski S-70 helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi iştirak edəcək.

* * *

"TurAz Qartalı - 2017" birgə taktiki təlimlərində Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin döyüş təyyarələrinin uçuşları davam edir.

Təlimlərdə iştirak edən hər iki ölkənin hərbi aviasiyası müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqların yerinə yetirilməsi məqsədilə uçuşlar həyata keçirir.

# Müdafiə naziri təlimlərdəki vəziyyətə dair məruzələri dinləyib



*Müdafiə Nazirliyinin rəhbərliyi genişmiqyaslı təlimlərin keçirildiyi bölgədəki hərbi hissəyə gələrək ümummilli liderimiz Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılmış büstünün önünə gül dəstələri qoyub və ehtiramını ifadə edib.*

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslərin ümumqoşun əməliyyatlarının aparılması zamanı fəaliyyətlərin təşkili üzrə qəbul edilən qərarlara dair məruzələrini dinləyib. Əsas diqqət mürəkkəb dağlıq relyef və radioelektron mübarizə şəraitində kəşfiyyat, maskalanma, istehkam, atəşlə zərərvurma və digər döyüş təminatı məsələlərinə yönəldilib.

Qarşılıqlı fəaliyyətin effektivliyinin artırılması, döyüş tapşırıqlarının aydınlaşdırılması, vəziyyətin qiymətləndirilməsi və qərarın məruzəsindən sonra qoşunların idarə olunması üzrə müvafiq göstərişlər verilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Müdafiə naziri "TurAz Qartalı-2017" təlimlərinin açılış mərasimində iştirak edib

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, nazirliyin rəhbər heyəti, eləcə də Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral "TurAz Qartalı-2017" birgə taktiki-uçuş təlimlərinin açılış mərasimində iştirak ediblər.*

Əvvəlcə hər iki dövlətin himnləri səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkələrimizin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri təlimlərdə iştirak edən şəxsi heyəti salamlayaraq çıxışına ümummilli lider Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamları ilə başlayıb. Nazir çıxışında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğını xüsusi qeyd edərək keçirilən təlimlərin əhəmiyyətini vacib hesab edib. Müdafiə naziri bunun hərbi gücümüzün daha bir nümunəsi olduğunu vurğulayaraq bu təlimlərin hər iki ölkənin silahlı qüvvələrinin təcrübə mübadiləsində çox vacib rol oynadığını bildirib.

Təlimlərin Azərbaycanda keçirilməsinin vacibliyini vurğulayan səfir E.Özoral qürur hissi keçirdiyini bildirərək son illərdə bunun artıq ənənə halını almasını xüsusi qeyd edib. Səfir təlimlərin başlanması və döyüş aviasiyasının uçuşlarının yüksək səviyyədə keçirilməsi ilə əlaqədar iştirakçılara uğurlar arzulayıb.

Sonra təlimlərin məqsədi, şəxsi heyətin hazırlığı, yerləşməsi, cəlb edilən qüvvələr, icra edilən tapşırıqlar, aviasiya vasitələrinin uçuşu və istifadəsi barədə məlumat verilib.

Müdafiə naziri uçuş və texniki heyətlə görüşərək döyüş aviasiyasına baxış keçirib, onların taktiki-texniki xüsusiyyətləri və təbiqi imkanları ilə maraqlanıb.

Təlimlərin açılış mərasimi Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının geniş konsert proqramı ilə sona çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*19 sentyabr 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 125 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Fərəhli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi, Əsrik Cırdaxan, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Kəngərli, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Müdafiə Nazirliyinin internet saytı "Google" xəbər servisinə qoşulub

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı "Google" xəbər servisinə qoşulub.

AZƏRTAC xəbər verir ki, sentyabrın 15-də "Google" xəbər servisində ilk dəfə olaraq birinci mənbə - yəni, Müdafiə Nazirliyinin saytı göstərilməklə və keçid verilməklə xəbər yer alıb. "Google" Müdafiə Nazirliyinin saytının ingilis dili versiyasındakı xəbəri servis edib.

Hazırda Azərbaycanın dövlət qurumlarından bir neçəsinin rəsmi saytı "Google" xəbər servisinə bağlıdır.

Müdafiə Nazirliyinin rəsmi internet saytı 2012-ci ildən fəaliyyət göstərir.

# Azərbaycanda genişmiqyaslı təlimlər başlayıb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, sentyabrın 18-dən müxtəlif qoşun növlərinin və qismlərinin iştirakı ilə genişmiqyaslı təlimlər başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərə 15.000 nəfərədək şəxsi heyət, 150-dən artıq tank və zirehli texnika, 120-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 20 ədəd müxtəlif təyinatlı döyüş aviasiyası, eləcə də yeni növ radioelektron kəşfiyyat vasitələri və pilotsuz uçuş aparatları cəlb olunub.

Təlimlər sentyabrın 22-dək davam edəcək.

# Hərbi Hava Qüvvələrinin hərbi hissəsində yeni yaşayış kompleksi istifadəyə verilib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin təkmilləşdirilməsi istiqamətində fəaliyyətlər davam etdirilir.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti HHQ-nin cəbhəboyu zonada yerləşən hərbi hissəsinin ərazisində yeni inşa edilmiş yaşayış kompleksinin açılışında iştirak edib, burada hərbi qulluqçular üçün yaradılmış şəraitlə tanış olublar.




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə Nazirliyinin rəhbərliyi, həmçinin ərazidəki əsgər yataqxanası, yeməkxana, sinif otaqları, mətbəx, ərzaq və əşya anbarları, qazanxana eləcə də digər xidməti və inzibati obyektlərə baxış keçirib.

Sonra Müdafiə naziri hərbi hissənin silahlanmasındakı döyüş texnikasına baxış keçirib və komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

* * *

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Hava Hücumundan Müdafiə (HHM) qoşunlarının cəbhəboyu zonada yerləşən bölmələrinin birində yeni inşa edilmiş növbəti yaşayış kompleksinin açılışında iştirak edib, hərbi qulluqçular üçün yaradılmış şəraitlə maraqlanıblar.

Müdafiə Nazirliyinin rəhbərliyi, həmçinin ərazidəki əsgər yataqxanası, yeməkxana, sinif otaqları, mətbəx, ərzaq və əşya anbarları, qazanxana eləcə də digər xidməti və inzibati obyektlərlə tanış olub.

Sonra Müdafiə naziri mövqelərdə olan döyüş texnikasına baxış keçirib, mühüm dövlət və hərbi obyektlərin hava zərbələrindən müdafiəsi məqsədilə qoşunların fəaliyyəti və digər məsələlərlə bağlı şəxsi heyət qarşısında müvafiq tapşırıqlar qoyub.

# Müdafiə naziri Azərbaycan-Ermənistan dövlət sərhədinin müdafiə zolağında yerləşən hərbi hissələrdə olub

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Silahlı Qüvvələrin cəbhəboyu zonada yerləşən hərbi hissələrinin döyüş qabiliyyəti, şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığı, həmçinin mülki əhalinin təhlükəsizliyinin təmin olunması şəraitini yoxlamaq məqsədilə Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan-Ermənistan dövlət sərhədi istiqamətindəki bölmələrdə olub.*



Dağlıq ərazidə və çətin iqlim şəraitində düşmənlə qarşıdurma xəttindəki bölmələrdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənova mövcud vəziyyət barədə məruzə edilib. Dövlət sərhədinin etibarlı müdafiəsinin, dayanıqlığının düzgün təşkil olunmasını yoxlayan Müdafiə naziri şəxsi heyətin hazırlığını yüksək qiymətləndirib. General-polkovnik Zakir Həsənov dövlət sərhədi istiqamətində üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib.

Müdafiə naziri hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, onların sosial-məişət şəraiti ilə maraqlanıb. Bildirilib ki, ön xətdə yerləşən bölmələr içməli su, istiliklə, yuyunma otaqları, isti yataq və digər lazımi qış ləvazimatları ilə tam təmin olunub. Müdafiə naziri müdafiə xəttinin gücləndirilməsi və bölmələrin döyüş qabiliyyətinin yüksəldilməsi ilə əlaqədar müvafiq tapşırıqlar verib. Bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim edildikdən sonra birgə nahar təşkil edilib.



Sonra qoşunların qarşıdurma xəttinə yaxın ərazidə yerləşən kəndlərə gələn Müdafiə Nazirliyinin rəhbərliyi yerli sakinlər ilə görüşüb, onların qayğıları, problemləri və təhlükəsizlik məsələləri ilə maraqlanıb. Kənd sakinləri ordu ilə birlikdə istənilən tapşırığın yerinə yetirilməsinə daim hazır olduqlarını bildirərək hərbi qulluqçuların yüksək nizam-intizamından və dövlət sərhədinin etibarlı müdafiəsindən razılıq ediblər, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Bakıda "Maddi-texniki təminatın əsasları" mövzusunda seminar keçirilir

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2017-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq proqramına əsasən, NATO-nun Brunssum Birləşmiş Qüvvələr Komandanlığının Mobil Təlim Qrupu tərəfindən Bakıda "Maddi-texniki təminatın əsasları" mövzusunda seminar keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir müddətində NATO nümayəndə heyəti tərəfindən iştirakçılara "Maddi-texniki təminatın əsasları", "Əməliyyatlarda maddi-texniki təminatın planlaşdırılması" və digər mövzular barədə məlumatlar verilir, eləcə də müxtəlif məşğələlər təşkil edilir.

Sentyabrın 22-dək davam edəcək tədbirdə Silahlı Qüvvələrin müxtəlif qoşun növlərindən hərbi qulluqçular iştirak edir.

# Silahlı Qüvvələrin Hərbi Akademiyasında NATO-nun təhsil ekspertlərinin işçi görüşləri keçirilir

Silahlı Qüvvələrin hərbi təhsil sisteminin müəyyən sahələrinin inkişafına dəstək üzrə NATO-Azərbaycan Birgə Fəaliyyət Planına müvafiq olaraq, Silahlı Qüvvələrin Hərbi Akademiyasında Müdafiə Nazirliyi və NATO-nun Beynəlxalq Dil Koordinasiyası Mərkəzinin (BİLC) ekspertləri arasında işçi görüşləri keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, nümayəndə heyətinin ölkəmizə səfərinin məqsədi, tədris müəssisələrində xarici dil tədrisi ilə məşğul olan mütəxəssislərə NATO-nun müvafiq mərkəzlərində tətbiq edilən müasir tədris sistemi haqqında məlumat vermək, qarşılıqlı fikir mübadiləsi aparmaq, eləcə də gələcək əməkdaşlıq imkanlarını müzakirə etməkdən ibarətdir.

İşçi görüşlər sentyabrın 22-dək davam edəcək.

# Ümummilli Liderimizin adını daşıyan Hərbi lisey yeni tədris ilinə də uğurla başlayıb

*Tədbirə hazırlıqla bağlı məruzə edildikdən, Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev liseyin pedaqoji və zabit heyətini, kursantları bilik günü münasibətilə təbrik edərək, xidmətlərində uğurlar arzulayıb.*



Heydər Əliyev adına Hərbi Liseyin müəllimi Təyibə Bağırova və kursant Namiq Bağırov tədbirdə çıxış edərək yaradılan hərtərəfli şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildirib, bundan sonra da dərslərdə fəal olacaqlarına söz veriblər. Valideynlərdən Yalçın Ağayev Heydər Əliyev adına Hərbi Liseydə təhsil alan gəncləri təbrik edərək bir valideyn kimi qürurlu olduğunu ifadə edib.

Çıxışlardan sonra Hərbi liseyin şəxsi heyətinin tribunanın önündən təntənəli keçidi olub.

Tədbirdə tədris vəsaitləri ilə tam komplektləşdirilmiş kursant çantaları nümayiş etdirilib. Hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığı ilə Heydər Əliyev adına Hərbi Liseydə təhsil almağa başlayan kursantların hər birinə tədris vəsaitləri ilə tam komplektləşdirilmiş çantalar hədiyyə edilir.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev yüksək bal toplayaraq Heydər Əliyev adına Hərbi Liseydə təhsil almağa başlayan 1-ci kurs kursantları ilə keçirilən dərslərlə maraqlanıb.

Heydər Əliyev adına Hərbi Liseydə yaradılan şəraitin nəticəsidir ki, təkcə Naxçıvan gəncləri deyil, həm də ölkəmizin digər bölgələrindən gənclər də təhsil almaq üçün bu hərbi təhsil ocağına üz tuturlar. 19 il əvvəl 56 kursantla fəaliyyətə başlayan liseydə bu gün 584 kursant təhsil alır. Onlardan 170 nəfəri hərbi təhsil almaq üçün ölkəmizin digər bölgələrindən Naxçıvan Muxtar Respublikasına gələnlərdir.

Bu il Hərbi liseyi bitirən məzunlardan 1 nəfəri qızıl, 1 nəfəri gümüş medala, 3 nəfəri fərqlənmə attestatına - xüsusi nümunəvi şəhadətnaməyə layiq görülüb. Heydər Əliyev adına Hərbi Liseyin məzunları ordu sıralarında şərəflə və məsuliyyətlə xidmət edirlər. Bu, Ulu Öndərimizin adını daşıyan hərbi təhsil müəssisəsinin müstəqil dövlətimizdə ordu quruculuğuna mühüm töhfəsidir. Ötən dövrdə Hərbi lisey böyük inkişaf yolu keçib. Kursantların ən müasir tələblər səviyyəsində təhsil alması, onların sağlamlığı və fiziki tərbiyəsi üçün lazım olan bütün tədbirlər görülüb. Göründüyü kimi, bu gün istər ali hərbi məktəblərdə təhsil alan, istərsə də Azərbaycan Silahlı Qüvvələrində xidmətlərini davam etdirən Hərbi liseyin məzunları nizam-intizamları, vətənpərvərlikləri, bilik və bacarıqları ilə seçilirlər.

**Leytenant Nəriman NƏCƏFOV,**
**foto Gündüz QASIMOVUNDUR**



# Rusiya Xəzər flotiliyasının hərbi gəmiləri Bakıya gəlib

*Rusiya Federasiyası Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının "Velikiy Ustyuq" kiçik raket gəmisi və "MB-58" dəniz yedəyi dostluq səfəri ilə sentyabrın 19-da Bakıya gəliblər.*

Qonaqlar Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə gül dəstələri qoyublar.

Səfər çərçivəsində gəmi heyətləri Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələri komandanlığı tərəfindən qəbul olunacaq və Azərbaycan Ali Hərbi Məktəbindəki tədris prosesi ilə tanış olacaqlar.

Proqram çərçivəsində mədəni və tarixi abidələrlə tanışlıq məqsədilə gəmi heyətlərinin Bakı şəhərində gəzintisi, həmçinin futbol üzrə yoldaşlıq görüşünün keçirilməsi planlaşdırılır.

Səfər sentyabrın 22-dək davam edəcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*21 Sentyabr Beynəlxalq Sülh Günüdür*

# Sülhə gəlin, ey insanlar!

Məlum olduğu kimi, 1981-ci ildə BMT tərəfindən təsis edilən Beynəlxalq Sülh Günü ilk mərhələdə sentyabrın üçüncü çərşənbə axşamı qeyd edilirdi, 2001-ci ildə Birləşmiş Krallıq tərəfindən təklif olunan qətnaməyə əsasən, bu əlamətdar gün üçün dəqiq tarix 21 sentyabr seçildi və o vaxtdan hər il mühüm hadisə kimi dünya miqyasında qeyd olunur.

İnsanları sülhə, sabitliyə, təhlükəsizliyə çağıran həmin gün BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında quraşdırılan "Sülh zəngi"nin səsləndirilməsi ilə başlayır. Yaponiya parlamentinin bütün dünya xalqlarına hədiyyəsi olan bu zəngin üzərində yazılmış "Yaşasın Mütləq Dünya Sülhü" sözləri sanki bəşəriyyətin qorunması, silahların susdurulması, sakini olduğumuz dünyamızda əmin-amanlığın təminatı üçün həyəcan siqnalıdır. Məhz bu gündə BMT-nin baş katibi Pan Gi Mun həmin zəngi səsləndirərək qan-qada gətirən döyüşləri 24 saat ərzində dayandırmağı, münaqişə və müharibələr zamanı həlak olanların xatirəsinin bir dəqiqəlik sükutla yad olunmasını təklif edir. Sülhün bərqərar olunmasına yönəlmiş bu çağırış insanlığın missiyası, bəşəri dəyərlərin ən önəmlisidir.

Xalqımızın Beynəlxalq Sülh Gününü qətd etməsi isə, təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllindən keçir. İllərdən bəri müharibə şəraitində yaşayan Azərbaycan üçün sülhün təminatı olduqca əhəmiyyətlidir.

Sülh tərəfdarı olan Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi zamanı erməni silahlıları tərəfindən öldürülən, əlil olan soydaşlarımızın hüquqlarının qorunması üçün beynəlxalq ictimaiyyəti ədalətli olmağa çağırır.

Bu il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndi istiqamətində işğalçı ordunun silahlı bölmə-



lərinin açdığı atəş dinc sakinlərin - 1966-cı il təvəllüdlü Sahibə Allahverdiyevanın və onun 18 aylıq nəvəsi Zəhra Quliyevanın həyatına son qoydu. 1965-ci il təvəllüdlü Səlminaz Quliyeva isə ağır yaralandı. Bu qanlı təxribata səbəb olan erməni cəlladları anındaca cavablarını aldılar. Prezident, Ali Baş Komandan İlham Əliyevin söylədiyi kimi, bu cinayət cavabsız qalmadı. "Ordumuz düşmənə sarsıdıcı zərbələr endirdi. Zəhranın və nənəsinin qanı yerdə qalmadı. Həmişə də belə olacaq. Nəyə hesablanmışdır, bu cinayət? İlk növbədə bu, Ermənistan siyasi rəhbərliyinin xislətini göstərir. Xocalı qatilindən, uşaq, qadın qatilindən başqa bir şey gözləmək mümkün deyil. Bu, erməni faşizmidir, bütün dünya da bunu belə qəbul etməlidir..."

Bununla da Ermənistan ordusu mülki əhalini qətlə yetirməklə insanlıq əleyhinə təkrar cinayət törətdi. Azərbaycan torpaqlarını işğal edən erməni faşistlərinin ötən əsrin əvvəllərində və sonlarında öz çirkin niyyətlərini həyata keçirmək üçün insanlığa yaraşmayan cinayətlərə imza atdıqlarını bütün dünya bilir...

Erməni qaniçənləri təcavüzkar niyyətlərini həyata keçirmək naminə xalqımıza qarşı soyqırımı cinayətləri törətməkdən və hətta yer üzünün ən sevimli varlıqları olan uşaqların qatili olmaqdan belə çəkinməyiblər. On minlərlə soydaşlarımızın qanına bais olan erməni daşnakları, hətta ana bətnindəki körpəyə də amansız olublar. Körpəni anasının gözü qarşısında süngüyə keçiriblər. Budur, erməni faşizminin iç üzü.

Bəşəriyyəti uşaqlarsız təsəvvür etmək nə qədər çətindir. Onlar dünyamızın ən böyük səadətidir. Körpə gülüşü, körpə qığıltısı bizə bəxş edilən nəhayətsiz sevincdir, bəxtəvərlikdir. Axı onlarsız həyatımızın sevinci, ümumiyyətlə, insanlığın gələcəyi yoxdur. Dünyanın yarandığı gündən ən məsum, günahsız varlıqları məhz uşaqlar olub. Ailələrdə eşidilən körpə qığıltısı xoşbəxtliyin timsalı deyilmi? Dünyamızın sülh rəmzi olan uşaqlara uzanan qanlı əllər kəsilsin!

Balaca Farizi, Aygünü, körpə Zəhranı qətlə yetirən əli qanlı erməni faşizmidir, erməni terrorizmidir. Lənətə gəlmiş bu insan qatilləri məsum körpələri qətlə yetirməklə insanlığa, təkcə insanlığa deyil, Uca Yaradana üz çevirirlər.

Hazırda Şərq ölkələrində baş verən münaqişələr, müharibələr nəticəsində yaranan qaçqın axını üçün bir günlük də olsa sülh nə qədər önəmlidirsə, bu dəhşəti insanlara yaşadanlar üçün bir o qədər əhəmiyyətsizdir. İraq, Suriya, Livan, Liviya, Misir, Əfqanıstan, Pakistan, Kəşmir, Türkiyə... terrorun baş alıb getdiyi, əhalisi əsasən müsəlmanlardan ibarət olan bu ölkələrdə sülhün, əmin-amanlığın bərpası üçün on illər lazım gələcək.

Hərbi silah və sursatdan istifadə nəticəsində ekoloji tarazlığın pozulması, dağılan şəhərlərin infrastrukturunun yararsız hala düşməsi, flora və faunanın nadir nümunələrinin kökünün kəsilməsi, həyat mənbəyi olan yaşıllıqların məhv edilməsi... bütün bunlar birbaşa və dolayısı ilə sülhün təminatı ilə bağlı olan amillərdir.

**Lalə HÜSEYNOVA, "Azərbaycan Ordusu"**

# Tam orta məktəblərdə gələcəyin əsgərlərini formalaşdıran hərbi rəhbərlərin peşəkarlıqlarının artırılması diqqət mərkəzindədir

*Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində "Gənclərin çağırışaqədərki hazırlığı" fənnini tədris edən hərbi rəhbərlərin peşəkarlığının artırılması məqsədilə Əlahiddə Ümumqoşun Orduda növbəti təlim toplantısı keçirilib.*



Əvvəlcə toplantıya cəlb edilmiş heyətin sıra hazırlığı yoxlanılıb.

Fiziki hazırlıq dərsləri zamanı hərbi rəhbərlərə silahlı, silahsız və ikilikdə çalışmalar kompleksi, eləcə də sürət və güc çalışmaları əyani olaraq göstərilib.

Keçirilən dərslərdə diqqətə çatdırılıb ki, ölkəmiz müharibə şəraitində yaşayır. Hərbi rəhbərlər də şagirdlərdə hərb sənətinə maraq yaratmalı, gəncləri hərbi xidmətə yüksək səviyyədə hazırlamalıdırlar. Bunun üçün dövlətimiz hərtərəfli şərait yaradıb. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən tam orta məktəblərdə hərbi kabinetlərin yüksək səviyyədə tərtib olunması, hərbi vətənpərvərlik guşələri hərbi rəhbərlərin "Gənclərin çağırışaqədərki hazırlığı" fənnini uğurla tədris etmələrinə müsbət təsir göstərir.

Toplantıda hərbi vətənpərvərlik mövzusunda film və videoçarxlara baxış olub.

Hərbi rəhbərlər Əlahiddə Ümumqoşun Ordunun təlim mərkəzində müxtəlif atıcı silahların təyinatı, taktiki-texniki xüsusiyyətləri ilə tanış olub, praktiki atışları icra ediblər. Əl qumbaralarından atış çalışmaları yerinə yetirilib, müxtəlif təyinatlı atıcı silahlar natamam sökülüb və yığılıb. Hərbi rəhbərlərin təlim toplantısında kütləvi qırğın silahlarından mühafizə vasitələri və onlardan istifadə qaydaları əyani şəkildə göstərilib.



Hərbi rəhbərlərin 3 günlük təlim-toplantısı yekun tədbiri ilə başa çatıb. Tədbirdə çıxış edənlər təlim-toplantının nəticələrini, hərbi rəhbərlərin bilik və bacarıq səviyyəsini müzakirə ediblər. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə bütün tam orta məktəblərin hərbi rəhbərlərinə yeni geyim formaları və tam tədris bazası ilə təmin edilmiş ibtidai hərbi hazırlıq yeşikləri təqdim edilib. Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Təhsil Nazirliyi və Əlahiddə Ümumqoşun Ordunun birgə təşkil etdiyi təlim-toplantının əhəmiyyəti qeyd edilib, hərbi rəhbərlərin peşəkarlığının artırılmasının bundan sonra da diqqət mərkəzində saxlanılacağı bildirilib. Həmçinin vurğulanıb ki, bu gün tam orta məktəblərimizdə şagirdlərin vətənpərvər ruhda formalaşmasına xüsusi əhəmiyyət verilir. Ona görə də hər il yüzlərlə gənc Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq üçün müraciət edir.

**Leytenant
Nəriman NƏCƏFOV,
fotolar
əsgər
Rasim İSMAYILLININDIR**

# Əsgərlərimizin döyüş ruhu yüksəkdir

*Müharibədə uğur əldə etmək üçün şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə olması, möhkəm nizam-intizam, qorxmazlıq, düşmənə nifrət kimi keyfiyyətlər vacib şərtlərdir. Ona görə də Silahlı Qüvvələrimizdə şəxsi heyətə bu vacib amillərin aşılanmasında əhəmiyyətli rol oynayan ictimai-siyasi hazırlıq dərslərinə xüsusi önəm verilir.*



"N" hərbi hissəsində şəxsi heyət üçün nəzərdə tutulmuş ideoloji guşə müvafiq standartlara uyğun formalaşdırılıb. Ümummilli lider Heydər Əliyevin zəngin irsini, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu siyasətini və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ön xətdə şəxsi heyətlə görüşlərini, həmçinin, dövlət atributlarımızı, tarixi qəhrəmanlarımızı əks etdirən stendlər hər kəsdə xoş təəssürat yaradır.

Qrup rəhbəri leytenant Dərviş Nəsibova görə, hərbi qulluqçu Vətənin tarixini bilməlidir. "Keçmişini unudanın gələcəyi olmaz. Şəxsi heyətə ictimai-siyasi hazırlıq dərslərini keçməklə onlara keçmişimizi, tariximizi öyrədirik. Hərbi qulluqçuların döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsində ictimai-siyasi hazırlıq dərslərinin əhəmiyyəti danılmazdır. Əsas məqsədimiz əsgərlərimizin döyüş və mənəvi-psixoloji hazırlığını yüksəltməkdir. Vətənə borcunu yerinə yetirən Azərbaycan əsgəri hərtərəfli hazırlıqlı olmağa borcludur".

Qısa söhbətdən sonra leytenant şəxsi heyətə məşğələnin mövzusunu elan edir: "Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normaları". Zabit mövzu haqqında geniş məlumat verməklə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq müstəvidə həlli məsələlərinə də toxunur: "Münaqişəyə cəlb olunan Azərbaycan işğalda olan torpaqlarının geri qaytarılması uğrunda mübarizə aparır, istər hərbi, istərsə də hüquqi müstəvidə. Ali Baş Komandanımızın qeyd etdiyi kimi, Azərbaycan Silahlı Qüvvələri torpaqlarını azad etmək iqtidarındandır, ancaq beynəlxalq hüquq normalarına da hörmətlə yanaşan ölkə rəhbərliyi münaqişənin diplomatik yolla həllində də maraqlıdır. Hərbi həll yolu da istisna olunmur. Bir məsələni də diqqətinizə çatdırım ki, Azərbaycan beynəlxalq hüquq normalarına hörmətlə yanaşsa da, Ermənistan bu normaları kobudcasına pozur. Beynəlxalq hüquq normalarının işləmə mexanizminə yaradılan belə süni maneələr hərbi həll yolunu daha çox gündəmə gətirir. Ona görə də hərbi qulluqçular torpaqlarımızı işğaldan azad etməyə hər an hazır olmalıdırlar".

Dərs başa çatdıqdan sonra əsgərlərə yaxınlaşıb onların fikirlərini öyrənirəm. Ordu sıralarına Laçın rayonundan çağırılan və 16 aydır ön xətdə xidmət edən əsgər Abdulla Əsədli söhbət zamanı bildirdi ki, torpaqlarımızın bütövlüyü uğrunda canından keçən, şəhidlərin qisasını almağa hər zaman hazırdır: "İşğalda olan torpaqlarımızı ermənilərdən azad etmək əsas məqsədimizdir. Döyüş hazırlığımız yüksək səviyyədədir və döyüş olarsa, düşmən üzərində tam qələbə qazanacağıq. Komandirlərimizin köməyi ilə dərsləri, təlimləri mükəmməl dərəcədə mənimsəməyə çalışırıq."

"2016-cı ilin aprel zəfəri sübut etdi ki, Azərbaycan Ordusu nəinki düşmən hücumlarının qarşısını almağa, hətta torpaqlarımızı işğaldan azad etməyə qadirdir", - deyə əsgər Fərhad Qasımlı söhbətə qoşuldu. Abşeron rayonundan çağırılan əsgər Azərbaycan bayrağının Şuşada, Laçında, Kəlbəcərdə,... dalğalanmasını səbirsizliklə gözlədiyini bildirdi.

"Vətən bizim anamız, namusumuz, qeyrətimizdir", - deyə orduya Şəmkir rayonundan çağırılan əsgər Məhəmməd Müşrəvanov söhbətə başladı. "Onun yolunda canımızdan keçmək, şəhid olmaq şərəfdir. Ön xətdə xidmət etmək mənim üçün xüsusilə qürurvericidir. Əsgər yoldaşlarımız ilə Vətən qarşısında borcumuzu layiqincə yerinə yetiririk".

Şəxsi heyətə xidmətlərində uğurlar arzu edirəm. Bir daha əmin oluram ki, Azərbaycan əsgəri səngərdə daim ayıq-sayıqdır.

**Leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Hərbi qulluqçuların statusu, onların və ailə üzvlərinin sosial müdafiəsi.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, hərbi xidmətkeçmə haqqında qanunvericilik aktlarından, Daxili Xidmət və İntizam nizamnamələrindən istifadə edərək dinləyicilərə hərbi qulluqçuların statusu, hərbi qulluqçulara və onların ailə üzvlərinə mövcud qanunvericiliklə şamil edilən hüquqlar haqqında ətraflı məlumat verməli və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə almaqla mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

**Suallar:**
**1. Hərbi qulluqçuların statusunun hüquqi təminatı.**
**2. Hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquqları.**
**3. Hərbi qulluqçuların təklif, ərizə və şikayətvermə hüquqları.**
**4. Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası.**

### *Hərbi qulluqçuların statusunun hüquqi təminatı*

Cəmiyyətin tərkib hissəsi olan Silahlı Qüvvələrdə hərbi xidmətkeçmə öz şəraitinə və xüsusiyyətlərinə görə digər fəaliyyət sahələrindən fərqlənir. Məhz buna görə də hərbi xidmətkeçmə qaydaları, eləcə də hərbi xidmət keçən vətəndaşların vəzifə və hüquqları xüsusi qanunvericilik aktları ilə tənzimlənir.

Azərbaycan Respublikasının Əsas qanunu olan Konstitusiyanın 9-cu maddəsində göstərilir ki, "Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır". Konstitusiyanın 76-cı maddəsinə əsasən, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər. Silahlı Qüvvələrin vəzifələri, hərbi xidmətin şəraiti və xarakteri "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilib. Bu qanundan irəli gələn tələblərə əsasən digər hərbi qanunvericilik aktları, o cümlədən, hərbi xidmət keçən vətəndaşların hüquq və vəzifələrini müəyyən edən "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının 25 dekabr 1991-ci il tarixli Qanunu qəbul edilmişdir. Həmin qanuna görə, hərbi qulluqçuların statusu Azərbaycan Respublikasının Konstitusiyasında, Azərbaycan Respublikasının başqa qanunvericilik aktlarında müəyyən edilən hüquqlardan, vəzifələrdən, bunların həyata keçirilməsi üçün təminatlardan və məsuliyyətdən ibarətdir. Hərbi qulluqçular Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyənləşdirilən, hərbi xidmətin xüsusiyyətləri ilə bağlı əlavələrlə və məhdudiyyətlərlə Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarından istifadə edirlər.

"Hərbi qulluqçuların statusu haqqında" qanunda deyilir: "Heç kəsin ixtiyarı yoxdur ki, hərbi qulluqçuları və onların ailə üzvlərini Azərbaycan Respublikasının Konstitusiyasında və qanunlarında Azərbaycan Respublikasının vətəndaşları üçün nəzərdə tutulmuş hər hansı hüquq və azadlıqlardan məhrum etsin və ya onların hüquqlarını məhdudlaşdırsın, buna yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına müvafiq surətdə yol verilir".

Dövlət orqanları, müəssisələri, idarələri, təşkilatları, vəzifəli şəxslər, hərbi idarəetmə orqanlarının komandirləri (rəisləri) öz səlahiyyətləri və vəzifələri daxilində hərbi qulluqçuların statuslarını təmin edirlər. Hərbi qulluqçuların hüquqlarının həyata keçirilməsi sahəsində vəzifələrini icra etməməkdə və ya lazımınca icra etməməkdə təqsiri olan şəxslər qanunvericiliyə müvafiq qaydada məsuliyyət daşıyırlar.

### *Hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquqları*

Hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquqları "Hərbi qulluqçuların statusu haqqında" qanun ilə müəyyənləşdirilib. Qanunun 6-cı maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşı olan hərbi qulluqçular Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasının seçkili dövlət orqanlarına seçmək və seçilmək, ümumxalq müzakirələrində və səsvermələrində (referendumlarda) iştirak etmək hüquqlarına malikdirlər. Ancaq qanuna görə, hərbi qulluqçular siyasi məqsədlər güdən siyasi partiyaların və kütləvi ictimai təşkilatların üzvü ola bilməzlər.

Dövlət sirrini və hərbi sirri açmamaq şərtilə hərbi qulluqçuların söz və mətbuat azadlığına, əqidə azadlığına, öz əqidəsini sərbəst ifadə etməsinə, 8-ci maddədə isə hərbi qulluqçuların şəxsi toxunulmazlığına təminat verilir. Hərbi qulluqçular yalnız məhkəmənin qərarına əsasən, habelə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrinin tələblərinə uyğun olaraq hərbi hissə komandiri (rəisi) tərəfindən intizam qaydasında həbs edilə bilərlər.

Qanunun 9-cu maddəsi ilə hərbi qulluqçuların əmək hüququ müəyyən edilir. Bu maddəyə əsasən vətəndaşların həqiqi hərbi xidmət keçdiyi dövr onların ümumi əmək stajına daxil edilir. Hərbi qulluqçuların hərbi xidmət vəzifələrinin icrasına mane olmayan elmi, texniki, bədii və başqa yaradıcılıq azadlığına təminat verilir.

Hərbi xidmətdən tərxis edilərkən hərbi qulluqçuların təhsili və ixtisası nəzərə alınmaqla işə düzəlməsinə təminat verilir. Hərbi xidmətdən tərxis olunmuş hərbi qulluqçulara maddi yardım göstərilməsi və onların məişət şəraitinin təmin edilməsi üçün yerli icra hakimiyyəti başçıları müəssisələrin, idarələrin, təşkilatların könüllü surətdə ayırdıqları vəsait hesabına hərbi qulluqçuların sosial müdafiəsi fondunu yarada bilərlər.

Müddətli hərbi xidmətə çağırılanadək işləmiş şəxslərin həmin müəssisədə, idarədə, təşkilatda əvvəlki vəzifəyə və ya buna bərabər işə girmək hüququ saxlanılır.

Hərbi qulluqçuların pul təminatı və maddi təminat hüquqları vardır. Qanunun 10-cu maddəsində göstərilir ki, hərbi xidmətin şəraitindən, ixtisasdan, hərbi peşədən, hərbi rütbədən və hərbi xidmətdə olmağın müddətindən asılı olaraq hərbi qulluqçuların dövlət hesabına təminat xərcliyi almaq hüququ vardır.

Hərbi qulluqçular Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi normalar üzrə dövlət hesabına ərzaq və əşya əmlakı, ərzaq və ya əşya əmlakı üçün pul kompensasiyası almaq hüququna malikdirlər.

### *Hərbi qulluqçuların təklif, ərizə və şikayət vermə hüquqları*

"Hərbi qulluqçuların statusu haqqında" qanunun 22-ci maddəsinə görə, hərbi qulluqçuların dövlət orqanlarına təklif göndərmək, ərizələr vermək, habelə vəzifəli şəxslərin, dövlət orqanlarının, vətəndaşların (o cümlədən hərbi qulluqçuların) hüquqazidd hərəkətləri barəsində müəyyən edilmiş qaydada şikayət etmək hüquqları var.

Təminat xərcliyinin verilməməsi, hərbi qulluqçular barəsində komandirlərin (rəislərin) və ya başqa hərbi qulluqçuların qanunsuz xidməti sərəncamları (hərəkətləri) barəsində, hərbi-xidmət münasibətlərinin başqa məsələləri barəsində şikayətlər Silahlı Qüvvələrin nizamnamələrində nəzərdə tutulmuş qaydada verilir, nəzərdən keçirilir və həll edilir.

Hərbi qulluqçular vəzifəli şəxslərin və hərbi idarəetmə orqanlarının nizamnamə münasibətləri çərçivəsindən kənara çıxan və hərbi qulluqçuların hüquqlarını və şəxsi ləyaqətini tapdalayan hüquqazidd hərəkətləri barəsində məhkəməyə şikayət edə bilərlər.

Şikayət verilməsinə mane olmaq və buna görə şikayət verəni cəzalandırmaq və ya təqib etmək qadağandır. Bunda təqsirli olanlar Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyətə cəlb edilirlər.

Azərbaycan Respublikasının "Vətəndaşların müraciətlərinə baxılması haqqında" 10 iyun 1997-ci il tarixli qanununun 4-cü maddəsində göstərilir ki, hərbi qulluqçuların xidmətlə əlaqədar müraciətlərinə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət və İntizam nizamnamələrinə uyğun olaraq baxılır.

Daxili Xidmət Nizamnaməsinin 5-ci maddəsinə görə, hərbi qulluqçu xidmət məsələlərinə dair özünün bilavasitə rəisinə və ancaq onun icazəsi ilə komanda üzrə daha böyük rəisə müraciət edə bilər. Hərbi qulluqçu şəxsi məsələlər üzrə, bir qayda olaraq, özünün bilavasitə rəisinə, müstəsna hallarda böyük rəisə müraciət edir.

Hərbi qulluqçu təklif, ərizə və şikayət verdikdə İntizam Nizamnaməsinin müddəalarını rəhbər tutmalıdır (qrup rəhbəri dərsə hazırlaşarkən İntizam Nizamnaməsinin 107-124-cü maddələrini diqqətlə öyrənməli və dərs zamanı onları dinləyicilərə çatdırıb şərh etməyə hazır olmalıdır).

### *Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası*

"Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası qanununun 27-ci maddəsi ilə hərbi qulluqçuların dövlət tərəfindən məcburi şəxsi sığortalanması nəzərdə tutulub. Qanun müəyyən edir ki, hərbi xidmət vəzifəsinin icrası dövründə həlak olmaq (vəfat etmək), xəsarət almaq (yaralanmaq, kontuziya almaq), səhhəti korlanmaq, hərbi xidmət keçmə ilə bağlı bədbəxt hadisələr və ya xəstəliklər ehtimalına qarşı hərbi qulluqçular hərbi xidmətə daxil olduqları andan dövlət tərəfindən məcburi sığortalanırlar.

Hərbi xidmət keçərkən əmək qabiliyyətini itirmiş şəxslərin sosial təminatına dövlət zəmanət verir.

Sığortalanmanın qaydası, şərtləri və sığorta ödənişlərinin məbləği Azərbaycan Respublikasının "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" 25 iyul 1997-ci il tarixli qanunu ilə tənzimlənir. Bu qanun hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək məqsədilə onların həyatının və səhhətinin dövlət icbari şəxsi sığortası qaydalarını və şərtlərini müəyyən edir.

Hərbi qulluqçuların sığortası dövlət sığorta orqanları tərəfindən həyata keçirilir.

Sığorta hadisələri baş verdikdə sığorta məbləğindən faizlə aşağıdakı sığorta ödənişləri verilir:

Sığorta edilən xidmətdə (toplanışda) olduğu zaman:

- həlak olduqda (vəfat etdikdə) - 100 faiz;
- yaralanma (kontuziya alma) xəstələnməsi nəticəsində xidmətdən (toplanışdan) buraxıldıqdan sonra 3 il müddətində öldükdə - 100 faiz;
- itkin düşdükdə - 100 faiz;
- xidməti vəzifəsini yerinə yetirməsi ilə əlaqədar olaraq sığorta edilən xidmətdən (toplanışdan) buraxıldığı gündən 3 il müddətinədək əlillik təyin edildikdə:

a) I qrup - 80 faiz;
b) II qrup - 60 faiz;
c) III qrup - 40 faiz;

- ağır yaralandıqda, yaxud səhhəti pozulduğuna görə xidməti vəzifəsini yerinə yetirməyə yararsız hesab edildikdə - 25 faiz;
- yüngül yaralandıqda - 5 faiz.

Qanunun 8-ci maddəsində deyilir: "Sığorta edilənə və ya onun vərəsələrinə sığorta məbləğinin verilməsindən aşağıdakı hallarda imtina edilir: Sığorta edilənin sığorta hadisəsi ilə birbaşa bağlı olan qəsdən cinayət törətdiyi barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda, yaxud sığorta edilən sərxoş vəziyyətdə hərəkət etdikdə".

Qrup rəhbəri mövzunun şərhini yekunlaşdırarkən dinləyicilərin nəzərinə çatdırmalıdır ki, Azərbaycan Respublikasında hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial-hüquqi müdafiəsi həmişə dövlət rəhbərliyinin diqqət mərkəzindədir. Hərbi qanunvericilik aktlarının bir çoxu Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonrakı ilk illərdə qəbul edildiyindən, müasir dövrdə ordu quruculuğunun tələblərinə cavab verməsi üçün son illərdə onlara bir sıra dəyişikliklər edilmişdir və yaxın vaxtlarda bu sahədə yeni dəyişikliklər edilməsi də mümkündür.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi**

Tibb xidməti

# Vətənə sədaqət andı

*İnsan özünü əməli və şəxsi ləyaqəti ilə təsdiqləyir. Belə insanlar gözəllik qanunları ilə qurub yaratmağı sevir, həyat həqiqətlərinə güclü inamı, nəcibliyi, mənəvi zənginliyi, saflığı ilə seçilirlər. Xeyirxahlıq, qayğıkeşlik, seçdiyi həkimlik peşəsinin, xüsusən ürək-damar cərrahiyyəsinin müqəddəsliyini qorumaq, nüfuzunu saxlamaq belə adamlar üçün ali məqsədə çevrilir. Bu şərəfli amalı gerçəkləşdirmək hər kəsə qismət olmur. 50 illik ömür yolunu arxada qoyan, bir çox insani keyfiyyətləri özündə cəmləşdirən Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Ürək-damar şöbəsinin, ürək-damar cərrahiyyəsi bölməsinin rəisi, tibb xidməti polkovniki Eldar Vəliyev belə ömür yaşayanlardandır.*



Eldar Vəliyev 1967-ci il sentyabrın 15-də Zəngilanda nüfuzlu və böyük hörmətə malik ziyalı ailəsində anadan olub. Ailəsi 1969-cu ildən Bakıda məskunlaşıb. Şəhər məktəbində orta təhsil alıb. 1984-cü ildə Tibb Universitetinin Müalicə-profilaktika fakültəsinə daxil olub, oranı cərrah ixtisası üzrə bitirib. Torpaqlarımızın işğal altında olmasını qəbul edə bilməyən həkim Eldar Vəliyev könüllü olaraq ordu sıralarına gedib - həkimlik peşəsini şərəfli hərbçi peşəsi ilə birləşdirib. Sumqayıtda yerləşən Tibb Məktəbində təlimatçı, Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Ümumi cərrahiyyə şöbəsinin tibbi gücləndirmə briqadasının həkim-cərrahı, damar cərrahiyyəsi bölməsinin baş ordinatoru, bölmə rəisi vəzifələrində çalışıb. Hazırda Baş Klinik Hospitalın ürək-damar cərrahiyyəsi bölməsinin rəisidir. Tibb xidməti leytenantı kimi fəaliyyətə başlayan hərbi həkim bu gün tibb xidməti polkovnikidir.

50 yaşı tamam olur. Özünün dediyi kimi, 50 il ərzində fəxr ediləsi bir həyat yaşayıb və müqəddəs bir peşənin daşıyıcısıdır: "Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir. Onun həkimlik haqqında dediklərindən ilham alaraq deməliyəm ki, həkimlik bir insan üçün ömür boyu öyrənməyi, yenilənməyi, daim müasir fikirlər, çarələr axtarmağı tələb edən bir peşədir."

Həmsöhbətim hesab edir ki, bacarıqlı atanın yolu ilə gedən övladdır. Ancaq onu da etiraf edir ki, bu peşənin seçilməsində özünün istəyindən daha çox atasının istəyi rol oynayıb: "Bizim ailə həkim ailəsidi. Atam Ələsgər Vəliyev respublikanın baş infeksionisti vəzifəsində çalışıb və hazırda Tibb Universitetinin yoluxucu xəstəliklər şöbəsinin dosentidir. Mənim həkim olmağımın əsas səbəbkarı da odur. Mən əvvəlcə həkim olmaq fikrində deyildim. Atamın çəkdiyi əziyyətləri, ezamiyyətdə keçirdiyi günlərin şahidi olduğumdan həkim olmaq istəmirdim. Həyat elə gətirdi ki, üç qardaşdan, ancaq mən həkim oldum və atamın yolunu davam etdirdim. İnstituta daxil olduqdan, nəzəri mərhələni keçdikdən sonra məndə həkimlik sənətinə sevgi yarandı. Atamın davamçısı, müqəddəs bir peşənin daşıyıcısı olduğuma görə çox xoşbəxtəm. Deyəsən, kiçik oğlum da bu peşəyə yiyələnmək istəyir."

Söhbət zamanı həkim Eldar Vəliyev könüllü olaraq ordu sıralarına qatıldığı illəri də xatırlayır: "İnstitutu bitirdikdən sonra M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində təcrübə keçirdim. Təcrübəni bitirər-bitirməz könüllü olaraq ordu sıralarına qatıldım. Məqsədim müharibədən zərər çəkmiş oğullarımıza həkim kimi yardımçı olmaq idi. Həmin ərəfədə jurnalist, Milli Qəhrəman Salatın Əsgərovanın anası professor Tamara Əliyeva ilə birgə hazırladığımız yaralanma, qanaxma və digər zədələr zamanı göstərilən tibbi yardımlar haqqında kitab Sumqayıtdakı Tibb məktəbində təlimatçı vəzifəsinə gəlməyimdə körpü rolunu oynadı. Bundan sonra Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Ümumi cərrahiyyə şöbəsinin tibbi gücləndirmə briqadasının həkim-cərrahı kimi fəaliyyət göstərdim. Səhər saat 8-dən axşam saat 23-ə kimi işləyir, yaralı qəbul edirdik. Ölümün cəngindən qurtardıqlarımız az deyildi. Ona görə də şərəflə 25 illik fəaliyyətim dönəminə rahatlıqla dönüb baxa bilirəm. Mən xoşbəxt insanların sırasındayam.

Gülhanə Hərbi Tibb Akademiyasında 5 dəfə olmuşam. Bunlardan biri mənim üçün daha yaddaqalan olub. Bir dəfə Gülhanə Hərbi Tibb Akademiyasının həmin dönəmdə rəhbəri olan Harun Tatar bizi ulu öndər Heydər Əliyevlə görüşdürdü. Ümummilli Liderimiz söhbət əsnasında bildirdi ki, çox keçməyəcək belə inkişaf səviyyəsinə malik olan xəstəxanalar Azərbaycanda da olacaq. Bəli, Ulu Öndərin dediyi kəlamlar həqiqət oldu, reallıqda öz əksini tapdı. Görün, hansı səviyyədən hansı səviyyə gəldik. Bütün bunların ərsəyə gəlməsində möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin zəhməti böyükdür. Möhtərəm Prezidentimizin diqqət və qayğısı nəticəsində 2006-cı ildə əsası qoyulan, 2013-cü ildə 27 müalicə-diaqnostika bölməsini özündə birləşdirən ikinci müalicə korpusu ilə daha genişlərdirilən Silahlı Qüvvələrin Baş Klinik Hospitalı müasir standartlara uyğun olan texnologiya ilə təchiz olunub".

Tibb xidməti polkovniki Eldar Vəliyev söhbət zamanı onu da bildirdi ki, inkişafın nəticəsi olaraq bu gün hərbi həkimlərimiz dünyada ilk dəfə olaraq ürək damarlarında EKOS tətbiqi adlı əməliyyatı asanlıqla həyata keçirir: "Çox böyük qürur hissi ilə deyə bilərəm ki, həkimlərimiz tərəfindən dünyada ilk dəfə olaraq ağır miokard infakt keçirmiş xəstə üzərində tac arteriyasını gücləndirilmiş ultrasəs dalğaları ilə selektiv trombaliz edərək uğurlu nəticə əldə edilib. Bu da hərbi həkimlərin dünyada ilk dəfə tətbiq etdiyi böyük bir nəticə kimi qeyd edilməlidir".

Həmsöhbətim onu da bildirdi ki, əvvəllər ağciyərin trombu diaqnozu qoyulan xəstəyə ümidsiz baxılırdı: "Hazırda isə bizim hospitalda bu, uğurla aparılır. Hospitalımızda xüsusi kataterlə ağciyər arteriyasının massiv trombləzasiyası ilə qəbul edilmiş pasiyentə ağciyər arteriyasında selektiv tromboliz tətbiq edilir ki, bu da qürurverici amildir. Ən əhəmiyyətlisi odur ki, insanları ölümdən qurtarırıq, sağaldırıq və onların duasını qazanırıq. Bizi yaşadan da o dualardı. İnsanların duasını eşidəndə, altı, bəzən də səkkiz saatlıq əməliyyatdan sonrakı yorğunluq aradan qalxır".

Sonda Eldar həkim bütün hərbçilərə sağlam və aktiv həyat tərzi sürməyi arzuladı. Bildirdi ki, hər bir insan canının həkimi olmağı bacarmalıdır. - Vətəndaş kimi isə ən böyük arzum torpaqlarımızın işğaldan azad olunmasıdır. İnanıram ki, Ali Baş Komandanımızın rəhbərliyi altında qüvvətli və qüdrətli Azərbaycan Ordusu qalibiyyətli zəfər yürüşünə nail olacaq. Şuşamız, Xankəndimiz, Ağdamımız, Cəbrayılımız, Zəngilanımız,... geri qaytarılacaq.

...Hippokrat andı da içmişəm, Vətənə sədaqət andı da. Vətənə sədaqət andı daha müqəddəsdir...

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyədə hərbi təlimlər başlayıb



Türkiyə Silahlı Qüvvələri (TSQ) sentyabrın 18-də ölkənin Silopi-Habur bölgəsində hərbi təlimlərə başlayıb.

Hərbi təlimlərlə paralel olaraq bölgədə anti-terror əməliyyatları da aparılır.

### Pakistanda partlayış nəticəsində azı beş nəfər həlak olub



Pakistanın şimal-qərbində, Navaqay qəbilələr ərazisində yolların birində məsafədən idarə edilən bombanın partladılması nəticəsində azı beş adam həlak olub.

Ölkə mətbuatının verdiyi məlumata görə terror aktını törədənlər axtarılır, hadisə yeri mühasirəyə alınıb.

Terror aktı ilə bağlı məsuliyyəti, hələ ki, heç bir qruplaşma öz üzərinə götürməyib.

### Myanmada təxminən 800 müsəlmanın yaşadığı kəndin evləri yandırılıb



Myanmanın Arakan vilayətində yandırılan evlərin fotoşəkilləri sosial mediada yayımlanıb.

Nəxminən 800 nəfər müsəlmanın yaşadığı Nondakhali kəndində evlər yandırılıb. Ordunun hücumu nəticəsində vilayətdə ümumilikdə 200-dək kənd dağıdılaraq yararsız vəziyyətə salınıb.

On minlərlə müsəlman qırğınlardan canını qurtarmaq üçün bölgədən uzaqlaşmağa çalışır. Myanmadan qaçan müsəlmanlar dağlıq ərazilərdən, Naf çayından və ya dəniz üzərindən keçərək Banqladeşə sığınır. UNICEF-in açıqlamasına görə, avqustun 25-dən etibarən təxminən 400 minə yaxın müsəlman Banqladeşə keçib. Onların arasında 200 mindən çox uşaq var.

### Moskvada tikilən ən hündür seyr qülləsi açılışa hazırdır



Moskvada Avropada ən hündür seyr qülləsi inşa olunub.

"Başnya Federasiya" QSC-nin direktoru Mixail Smirnov bildirib ki, cari ilin sonunadək "Moskva-Siti"də Avropada ən yüksək seyr qülləsi açılacaq. O, "Federasiya. Vostok" binasında yerləşəcək.

"Federasiya. Vostok" binasında bütün tikinti işləri sona çatıb. Bina 99,7 faiz açılışa hazırdır. Binanın 2-3 ay ərzində açılması planlaşdırılır və seyr qülləsi də ziyarətçilər üçün açıq olacaq. Qüllədə dondurma fabriki də fəaliyyət göstərəcək.

Xatırladaq ki, "Başnya Federasiya" iki göydələndən ibarətdir: "Vostok i Zapad". "Federasiya. Vostok"un hündürlüyü 374 metr, 97 mərtəbədən ibarətdir. Seyr meydançası 89-cu mərtəbədə yerləşir. 63 mərtəbədən ibarət olan "Federasiya. Zapad"ın hündürlüyü isə 242 metrdir.

2014-cü ildən "Federasiya. Vostok" Avropada ən yüksək qüllə hesab olunur.

### İraqda dörd terrorist zərərsizləşdirilib



Türk Silahlı Qüvvələri İraqda əməliyyat keçirib.

Əməliyyat nəticəsində hava hücumu həyata keçirilib və dörd terrorist zərərsizləşdirilib.

Qeyd edək ki, əməliyyat İraqın Avaşin Basyan bölgəsində təşkil edilib.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Güləşçilərimiz növbəti qələbəyə doğru...

## MOİK-in idmançıları ölkəmizi layiqincə təmsil edəcək

*Azərbaycanda idmana göstərilən yüksək qayğının nəticəsi olaraq bu gün respublikamızda idmana böyük maraq və diqqət var. Hər sahədə olduğu kimi, Vətənimizin müdafiəsində duran hərbi qulluqçularımız arasında da dövlətimizin idman şərəfini yüksəldən idmançılar var. Ordu sıralarında xidmət edən hər bir hərbçi yaxşı bilir ki, onların əsas vəzifəsi Vətən torpaqlarının keşiyini çəkməkdir. Torpaqlarımızı işğaldan azad etmək üçün hər an hücuma hazır olan hərbçilərimizə bəllidir ki, hücum döyüşünün mərhələlərindən biri də əlbəyaxa döyüşdür. Bu döyüş isə yüksək çeviklik və fiziki hazırlıq tələb edir. Bunun üçün döyüş hazırlığı ilə yanaşı, hərbi qulluqçularımızın fiziki cəhətdən möhkəm, güclü və sağlıqlı olmaları daim diqqət mərkəzində saxlanılır. Fiziki cəhətdən hazır olan hərbi qulluqçular döyüş tapşırıqlarını daha çevik və dəqiq yerinə yetirirlər. Məhz buna görə də hərbi qulluqçularımız xidməti vəzifələrini yerinə yetirməklə yanaşı, bir və ya bir neçə idman növü ilə də məşğul olurlar. Hərbçilərimizin həm gündəlik, həm  də peşəkar idman fəaliyyəti ilə məşğul olması üçün Silahlı Qüvvələrimizdə yüksək şərait yaradılıb.*




Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunda (MOİK) peşəkar və təcrübəli məşqçilərin rəhbərliyi ilə hərbçi idmançılar müxtəlif beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edirlər. Hərbçi idmançılarımızın sorağı peşəkar idman arenalarından gəlir. Onlar Olimpiya Oyunlarında, Dünya və Avropa çempionatlarında və digər beynəlxalq turnirlərdə qələbələr qazanırlar. MOİK pəhləvanları 6 dəfə Ümumdünya Hərbi İdman Oyunlarında və hər il müxtəlif idman növləri üzrə keçirilən Dünya çempionatlarında uğurla çıxış edərək 33 qızıl, 42 gümüş və 58 bürünc medal qazanıblar. Azərbaycan milli yığma komandasının əksər üzvləri Mərkəzi Ordu İdman Klubunun yetirməsidir.

Hərbçilərimizin uğurları bununla tamamlanmır. Mərkəzi Ordu İdman Klubunun yetirmələri idmanın güləş növü üzrə keçiriləcək 32-ci Dünya çempionatında iştirak etmək üçün Litva Respublikasının Klaipeda şəhərinə yollanıblar. Yolasalma mərasimində heyətin rəhbəri, MOİK-in rəisi polkovnik-leytenant Rəşad Quliyevlə, idmançılarımızı yarışlara hazırlayan məşqçilərlə və bir neçə idmançı ilə həmsöhbət oldum. İlk həmsöhbətim klubun rəisi polkovnik-leytenant Rəşad Quliyev oldu. Litvaya yola düşəcək heyət haqqında danışan zabit təlim-məşq toplantısının başa çatdığını və idmançıların yüksək səviyyədə hazırlığını qeyd etdi. Beynəlxalq Hərbi İdman Şurasının keçirdiyi yarışlarda Azərbaycan Respublikasının Silahlı Qüvvələrini dəfələrlə layiqincə təmsil edərək, Vətənə çoxlu medallar gətirdiklərini vurğuladı.

- Yarışda ölkəmizi 16 idmançı, 2 hakim və 2 məşqçi təmsil edəcək. İnanıram ki, idmançılarımız bu çempionatda da uğurlu çıxış edərək ölkəmizə medallarla qayıdacaq. Heyətimizdə Dünya və Avropa çempionlarının, Olimpiya Oyunlarının, Respublika birinciliklərinin qalibi olan güləşçilərimiz var. Peşəkar məşqçilərimiz idmançıları yüksək səviyyədə hazırlayıblar. İnanıram ki, xalça üzərinə çıxan hər bir güləşçimiz qələbə qazanacaq.

Ötən çempionatlarda, hərbçilər arasında keçirilən birinciliklərdə, Olimpiya Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında hərbçi idmançıların uğurları olub. Qazanılan qələbələrdə bu idmançıları xalça üzərinə çıxaran, onların hazırlığı ilə birbaşa məşğul olan məşqçilərin əməyi böyükdür. Məşqçilər yetirmələrini fiziki cəhətdən hazırlaşmaqla yanaşı, onlara mənəvi cəhətdən də dəstək olurlar. Bir sözlə, onların işi təkcə məşq etdirməklə bitmir, döşək üzərinə çıxan idmançıya yarış zamanı kənardan dəstək olurlar. İdmançıların uğurları, birbaşa məşqçilərin də uğurudur. Litva Respublikasına yola düşən heyət arasında kifayət qədər titullu və peşəkar məşqçilərimiz də var.

Yeri gəlmişkən, bu ilin iyununda Müdafiə naziri general-polkovnik Zakir Həsənovun idmançılarımızı qəbul etməsi, mükafatlandırması onları daha böyük qələbələr qazanmağa ruhlandırır. İnanıram ki, onlar gözlədiyimiz qələbələri qazanacaqlar.

İdmançılarla səmimi söhbət edən məşqçilərə yaxınlaşıram. Sərbəst güləş üzrə məşqçi mayor Nazim Əlicanovla söhbətləşirəm. Məlumat üçün bildirim ki, Nazim müəllim beynəlxalq dərəcəli idman ustası, Əməkdar məşqçi, hərbçilərin Olimpiya Oyunlarının qızıl medal mükafatçısı, hərbçilər arasında keçirilən XXX Dünya çempionatının qızıl medal mükafatçısıdır. Güləşin idmanın ən qədim növlərindən biri olduğunu və hərbçilərimiz arasında da sevildiyini deyən məşqçi, sərbəst güləş üzrə ölkəmizi təmsil edəcək heyətdən və onların hazırlığından danışır. Dünya çempionatına yüksək əhval-ruhiyyə ilə yola düşən idmançıların, ölkəmizə qələbə ilə qaydacağına ümidvar olduğunu bildirir:

- Bu yarışda komandamızı sərbəst güləş üzrə iki qadın olmaqla, 8 güləşçi təmsil edəcək. Onların hər biri əvvəlki dünya çempionatlarında, Olimpiya Oyunlarında iştirak edən və yüksək nailiyyətlər qazanan idmançılardır. İlk dəfə iştirak edəcək qadın güləşçilərimizdən də gözləntilər müsbətdir. Təlim-məşqlərdə böyük həvəs və ruh yüksəkliyi ilə hazırlaşan güləşçilərimizin ölkəmizə medallarla qayıdacaqlarına inanıram.

Yunan-Roma güləşçisi, beynəlxalq dərəcəli idman ustası, hərbçilər arasında keçirilən Avropa və Dünya birinciliklərinin 4 qat qalibi, hərbçilər arasında II Olimpiya Oyunlarının gümüş mükafatçısı mayor Taleh İsrafilov deyir ki, yunan-Roma güləş növü üzrə komandamızı 7 idmançı təmsil edəcək. Heyət arasında Dünya və Avropa çempionları ilə yanaşı, sonuncu dəfə ölkəmizdə keçirilən İslam Həmrəyliyi Oyunlarının qalibləri də var.

- Güləşçilərimizin əsas məqsədi dünya çempionatından Vətənə qızıl medallarla qayıtmaqdır. Bunun üçün idmançıların hazırlığının yüksək olması və bundan əvvəlki çempionatlardakı uğurlu çıxışları deməyə əsas verir ki, güləşçilərimiz bu yarışda da yüksək nəticələr əldə edəcəklər. Təlim-məşqlərin yüksək səviyyədə keçirilməsi üçün yaradılan şəraitə və göstərilən diqqətə görə Müdafiə Nazirliyinin və MOİK-in rəhbərliyinə bütün kollektiv adından minnətdarlığımı bildirirəm.

65 kq çəkidə ölkəmizi təmsil edəcək, hərbçilərarası Dünya çempionatının 2 qat qalibi, hərbçilərin Olimpiya çempionatında 3-cü yeri qazanmış leytenant Ağahüseyn Mustafayevlə söhbətləşirəm. Ağahüseyn Litvada ölkəmizi təmsil edəcək idmançıların arasında olduğu üçün sevinc hissi keçirdiyini və ölkəmizə qələbə ilə qayıdacağını bildirir:

- Mən fəxr edirəm ki, həm zabit kimi orduda xidmət edirəm, həm də beynəlxalq idman arenasında ölkəmizi təmsil edəcəm. Biz idmançıların bir məqsədi var: qələbələrimizlə ölkəmizin bayrağını həmişə yüksəkliklərdə dalğalandırmaq, Vətənə medallarla qayıtmaq. Azərbaycan Ordusunun zabiti kimi, əminliklə deyə bilərəm ki, idman arenalarında dalğalandırdığımız bayrağımızı tezliklə Qarabağa sancacağıq.

İslam Abbasov daha gəncdir. Bir çox turnirlərin mükafatçısıdır. 85 kq çəkidə mübarizə aparacaq, Gənclər və yeniyetmələr arasında keçirilən Dünya və Avropa çempionatlarının qalibi olub. - Bir gənc olaraq ölkəmizdə hər sahədə olduğu kimi, idman sahəsində də yüksək inkişaf getdiyinin  şahidiyəm. Avropa və İslam Həmrəyliyi Oyunları kimi, dünya miqyaslı idman yarışlarının ölkəmizdə keçirilməsi və bu turnirlərdə Milli komandamızın yüksək nailiyyət qazanması bunun bariz nümunəsidir. Həmin turnirlərdə idmançılarımız ölkəmizi layiqincə təmsil etdilər. Dünya çempionatında qələbə qazanmaq üçün bütün gücümü səfərbər edəcəyəm. Hər görüşə  qələbə əzmi ilə başlayacam.

Sərbəst güləş üzrə gənclər arasında Avropa çempionu, Dünya 2-cisi kimi uğurlar qazanmış Türkan Nəsirova ölkəmizi 48 kq çəkidə təmsil edəcək:

- MOİK-in komandasında yer aldığım və ölkəmizi təmsil edəcəyim üçün qürurlanıram. Mən bundan əvvəl bir çox turnirlərdə qələbə qazanmışam. Lakin  Ordu İdman Klubunun heyətində olmaq, Vətən keşikçiləri ilə bir sırada ölkəmizi təmsil etmək ikiqat sevincdir. Hərbçilərimiz hər birimizin qürur mənbəyi, güvənc yeridir. Biz hərbçi qardaşlarımızla hər zaman qürur duyuruq. Ordumuz aprel döyüşlərində bizə qələbə sevinci yaşatdı, mən də bu yarışda öz qələbəmi ordumuza həsr edəcəm.

Yunan-Roma güləşçisi, Dünya və Avropa çempionatlarının qalibi olmuş Həsən Əliyev bu yarışlara ciddi hazırlaşdığını deyərək bildirir ki, ölkəmizi Litva Respublikasında təmsil etmək mənim üçün böyük şərəfdir. "Bir çox yarışlarda olduğu kimi, mən bu yarışda da çalışacam ki, komandamıza qızıl medal qazandırım. Bütün yarışlara yüksək dərəcədə hazıram və qalib olacağıma əminəm".

İdmançılardan xoş təəssüratlarla ayrılıb, 32-ci Dünya Çempionatında hər birinə uğurlar diləyib, ölkəmizə qələbələrlə qayıtmalarını arzu edirəm...

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Məhəmməd ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 371
Nüsxə 4600